**Olaylar.-**2024.-3-16 may.-№15.-S.16.

# Bakı Konfransı-COP29 Tərəflər Konfransı tarixində ən nümunəvi tədbirlərdən biri olacaq

## Harada yaşamağımızdan, necə qidalanmağımızdan, vəzifəmizdən, tutduğumuz mövqedən asılı olmayaraq hamımız eyni havanı uduruq

**Ramiz Göyüş**

İndi heç kəsə sirr deyil ki, Azərbaycan dövlətin apardığı tədbirli və ağıllı enerji siyasəti sayəsində özünün zəngin təbii karbohidrogen ehtiyatlarından səmərəli istifadə etməklə Avropanın enerji təhlükəsizliyində fəal iştirak edir. Təbii ki, Azərbaycan cəmiyyəti kifayət qədər məlumatlı olduğu üçün bu məsələnin üzərində çox dayanmağa lüzum qalmır. Bununla belə son iki ildə Rusiya-Ukrayna/Qərb münaqişəsi ilə əlaqədar Rusiyaya tətbiq edilən sanksiyalar fonunda Avropanın enerji ilə təminatı məsələsində Azərbaycanın enerji resurslarına daha böyük ehtiyac yaranır və proseslərin gedişiatı göstərir ki, gələcəkdə bu ehtiyac daha da coxalacaq... Hazırda Azərbaycan özünün müəllifi olduğu, uzunluğu 3500 km olan Cənub Qaz Dəhlizi ilə Avropanın 9 ölkəsinə ən təmiz təbii yanacaq olan təbii qaz ixrac edir. 2023-cü ildə Avropaya ixrac olunan təbii qazın həçmi 12 milyard kub metrə çatıb və növbəti illərdə bu rəqəm 20 milyard kub metrə çatacaq. Avropada çoxlarına məlumdur ki, Qərbi Balkan ölkələrində əsas yanacaq kimi hələ də kömür yanacağından istifadə edilir və bu ölkələr səbirsizliklə öz ekoloji vəziyyətlərini yaxşılaşdırmaq üçün Azərbaycan qazını gözləməkdədir. Azərbaycan təbii qazının Balkan ölkələrinə verilməsi nəticəsində bu ölkələrdə istilik effekti yaradan qazların emissiyasının 70 faizə qədər azaldılmasına imkan verəcək.

Təbii ki, Azərbaycanın "yaşıl enerji"yə keçidlə əlaqədar gördüyü tədbirlər yalnız işğaldan azad olmuş ərazilərdəki layihələrlə məhdudlaşmır. Yuxarıda qeyd edildiyi kimi Azərbaycan həm bir neft-qaz ölkəsi, həm də beynəlxalq birliyin üzvü olaraq, beynəlxalq sənədlər, o cümlədən Kioto və Paris Razılaşmalarına uyğun olaraq öz üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirməkdədir. 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Azərbaycan elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Təkcə onu demək kifayət edir ki, dünyada miqyasına görə ən iri tədbirlərdən biri olan COP29-a ev sahibliyini öz üzərinə götürməsi deyilənlərin əyani sübutudur. Lakin məsələlər təkcə bununla bitmir.

Ötən il fevralın 13-də Mingəçevirdə müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirildi. Ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq stansiya respublikanın daxili resursları hesabına inşa edilır. Stansiyanın inşasında müasir texnologiyaların tətbiqi nəticəsində ildə 1 milyard kub metr təbii qaza qənaət ediləcək, ətraf mühitə atılan karbon qazının miqdarı 2 milyon ton azalacaq.

Son 20 il ərzində Azərbaycanda ümumi generasiya gücü 3400 meqavat olan 34 elektrik stansiyası inşa edilmişdir. Əgər nəzərə alsaq ki, hazırda ölkənin enerji müəssisələrinin ümumu generasiya gücü 7200 meqavatdır, onda görərik ki, bu güclərin 3400 meqavatı son 20 ilin payına düşür. 2025-ci ildə Mingəçevirdə inşa edilən yeni stansiya istismara verildikdən sonra generasiya gücümüz təxminən 8700 meqavata catacaq.

Biz bura hazırda işğaldan azad olmuş ərazilərdə yaradılacaq 500 meqavat generasiya gücünü, tikilməkdə olan 470 meqavatlıq günəş və külək stansiyalarının və yaxın vaxtlarda tikintisinə başlanacaq 240 meqavatlıq stansiyanın gücünü də əlavə etsək, 2025-ci ildə Azərbaycanda ümumi generasiya gücü təxminən 9700-10000 meqavat təşkil edəcəkdir ki, bu da kifayət qədər böyük rəqəmdir və qarşımızda geniş imkanlar açır.

Azərbaycan təkcə karbohidrogen ehtiyatları ilə deyil, həm də bərpa olunan yanacaq ehtiyatları ilə zəngin bir ölkədir. Azərbaycan bu ehtiyatları nəzərə alaraq, yaşıl gündəliyə doğru irəliləməkdədir. Bu təkcə ölkəmizin gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəsidir.

Ötən il dekabrın 26-da Birləşmiş Ərəb Əmirliyinin "Masdar" firmasının investisiyası hesabına 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış olmuş və stansiya istismara verilmişdir. Lakin bu stansiya nəzərdə tutulan böyük işlərin başlanğıcıdır. Həmin gün Birləşmiş Ərəb Əmirlikləri ilə üç saziş imzalanmışdır və həmin sazişə əsasən 1 qiqavat gücündə günəş enerjisi istehsalına imkan verən stansiya istismara veriləcək. Lakin planlar daha genişdir və Azərbaycanla BƏƏ mərhələlərlə 10 qiqavata qədər bərpa olunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırır. Cənab Prezident İlham Əliyevin sözləri ilə desək, "Bu, regionun enerji inkişafında tam bir inqilab olacaqdır."

Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur. Bu stansiyaların böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə inşa ediləcək. Yəni bu, doğrudan da çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir.

Ölkənin elektrik enerjisi istehsalında yaranmış mövcud potensial onu Avropa üçün əsas elektrik enerjisi təchizatçılarından birinə çevirir. "Yaşıl enerji" istehsalı müəssisələrinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına ixracı Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindəndir. Məlumdur ki, 2023-cü ilin iyununda Avropa İttifaqı ilə Azərbaycan enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalayıb. 2023-cü ilin may ayında Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında Prezident İlham Əliyev demişdir: "Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığının müsbət məqamları olduqca çoxdur və gələcək potensial da olduqca genişdir. Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir".

2022-ci il dekabrın 17-də Buxarestdə Avropa Komissiyasının Prezidenti Ursula von der Leyenin iştirakı ilə "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş" imzalanıb.

Saziş Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin və əlaqələrinin gücləndirilməsini, təchizat mənbələrinin şaxələndirilməsini, Xəzər regionunda bərpa olunan enerji istehsalı potensialından istifadə edilməsini nəzərdə tutur və dörd dövlətin maraqlarına cavab verir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev demişdir: "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" bizim Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə daha bir ümumi töhfəmiz olacaq. Saziş yaşıl enerji dəhlizinin yaradılması üçün olduqca vacib bir sənəddir....Bizim ölkəmiz elektrik enerjisinin Avropaya mühüm təchizatçısına çevrilməkdədir... Biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq. Tədbirdə iştirak edən Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen isə deyib ki, "Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır. İmzalanan sənəd Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq. Bu bizim hər iki regionumuzda təmiz enerjiyə çatmağa yardım edəcək".

Düşünürəm ki, bütün qeyd olunanlar Azərbaycanın BMT-nin İqlim Dəyiişikliyi üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının-COP29 -un nə üçün Bakı şəhərində keçirilməsi sualına əsasən cavab vermiş olur. Eyni zamanda yazıda Azərbaycanın bir dövlət olaraq Qlobal İqlim Dəyişikliklərinə verdiyi töhvələr tam da olmasa, əsasən öz əksini tapmışdır.

Formalaşmış ənənəyə görə Tərəflər Konfransında illik COP tədbiri keçirilməzdən əvvəl dünyanın müxtəlif ölkələrinin iqlim icmasından olan tanınmış şəxslər və nazirlər Berlində yığışaraq bu tədbirin gündəliyini müəyyən edir. Ona görə də Bakıda keçiriləcək COP29-un gündəliyi hələlik müəyyən edilməyib. Konfransın gündəliyi 2024-cü ilin aprel ayında Almaniyada keçirilən Petersberq İqlim Dialoqu zamanı müəyyən edilmişdir və Dialoqda COP29-un bütün prioritetləri yaxın günlərdə elan olunacaqdır.

Bununla belə Azərbaycan və onun paytaxtı Bakı şəhəri bu ilin noyabrında keçiriləcək mühüm beynəlxalq tədbirə -COP29 Konfransına hazırlaşmaqdadır.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamının icrası ilə əlaqədar hazırlanmış tədbirlər planı uğurla icra edilməkdidir.

Azərbaycan Respublikası Prezidentinin 7 yanvar 2024-cü il tarrixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti müəyyən edilmiş, bu tədbirlərə hazırlıq işlərinin aparılması və sədrliyin həyata keçirilməsi üçün məsul nümayəndələrdən ibarət heyətin formalaşdırılması səlahiyyəti verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2024-il tarixli Sərəncamı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar geniş tərkibdə Təşkilat Komitəsi yaradılmış və Təşkilat Komitəsi öz işinə başlamışdır.

COP29-un keçirilmə məkanı müəyyənləşdirilmişdir və bu məkan Olimpiya stadionu olacaqdır. COP29 adı altında Tərəflər Konfransının rəsmi loqosunun təsdiq edilməsi, COP29.az adı altında sosial şəbəkələrdə səhfələrin açılması bu beynəlxalq tədbir haqqında əhalimizin daha da məlumatlandırılmasına imkan verəcəkdir.

Bu günlərdə - aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Hazırlıq üçün bizim bir ildən də az vaxtımız qalırdı. Beləliklə, biz yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik. COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji"sahəsindəki

fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanı yaradacaq".

Bütün qeyd olunanlar deməyə əsas verir ki, İndiyədək ölkəmizdə keçirilən bütün beynəlxalq tədbirlər kimi bu mühüm beynəlxalq tədbir də uğurla icra olunacaq və COP29 Tərəflər Konfransı tarixinə öz parlaq səhfəsini yazacaqdır. Cənab Prezident İlham Əliyevin sözləri ilə desək: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".